**Samir Xosrov oğlu Ələsgərov**

**UOT:336.2:336.02:336.027; JEL:L60;H21;H71.**

# Azərbaycanın emal sənayesində mövcud vergilərin stimullaşdırıcı mexanizmlərinin səmərəlilik məsələləri

***Xülasə***

*Tədqiqatın məqsədi – Azərbaycanın emal sənayesində mövcud vergilərin stimullaşdırıcı mexanizmlərinin səmərəlilik məsələlərinin araşdırılmasıdır. Bu məqsədlə emal sənayesində mövcud potensial təhlil olunmuş və vergilərin optimallaşdıulması hesabına bu istiqamətdə daha məhsuldar nəticələrin əldə olunması imkanları baxılmışdır. Emal sənayesində vergi siyasətinin mühüm aspektləri araşdırılmış və bu sahədə olan mexanizmlərin səmərəliliyi məsələləri təhlil olunmuşdur. Azərbaycanın emal sənayesinin müxtəlif sahələrinin potensial inkişaf imkanları baxılmış və bu imkanların vergilərin stimullaşdırılması hesabına reallaşdırılması yolları araşdırılmışdır. Ölkənin emal sənayesi müəssisələrin əsas göstəriciləri və 2020-ci ildə vergi növləri üzrə büdcə daxilolmaları təhlil olunmuşdur. Emal sənayesinə tətbiq edilən vergi strategiyası formalaşması mərhələləri əsaslandırılmış və təklif edilmişdir. Tədqiqatın metodologiyası – araşdırılan problemlərə dair müasir dövrdə mövcud vəziyyətdən yanaşmaqla, təhlil və sintez, ümumiləşdirmə metodlarından, bundan başqa emal sənayesində mövcud vergilərin stimullaşdırıcı mexanizmlərinin səmərəlilik məsələləri üzrə məlum nəzəri-metodiki əsaslar, bu problemlərlə bağlı alim və tədqiqatçıların əsərlərindəki yanaşmalardan ibarətdir. Tədqiqatın tətbiqi əhəmiyyəti – alınmış elmi-praktiki nəticələrdən və elmi-iqtisadi müddəalardan, verilmiş təkliflərdən Azərbaycanda emal sənayesinin potensialından daha səmərəli istifadə olunmasında, məqsədli proqramların və tədbirlərin hazırlanmasında istifadə oluna bilər. Tədqiqatın nəticələri – COVİD-19 pandemiyası şəraitində və pospandemiya dövründə Azərbaycanın emal sənayesində hazırda qüvvədə olan vergilərin təkmilləşdirilməsi və onların stimullaşdırıcı mexanizmlərinin işlənib hazırlanması ilə bağlıdır. Tədqiqatın orijinallığı və elmi yeniliyi – tədqiqatda verilən materiallar bu sahədəki olan problemlərə dair təhlillər əsasında müəllif yanaşmasındakı baxışlardan və elmi arqumentlərdən ibarətdir, yəni materiallar əsasən orijinaldır. Əsas elmi yenilik kimi müasir inkişaf drayverləri və qlobal risklər, təhdidlər nəzərə alınmaqla Azərbaycanın emal sənayesində hazırda istifadə olunan vergi dərəcələrinin və vergi mexanizmlərinin adekvatlığının müəyyənləşdirilməsi və bu problemlərə yeni yanaşmaların təmin olunmasıdır. İşğaldan azad olunmuş ərazilərin potensialı və pandemiya ilə bağlı yaranan mənfi fəsadların aradan qaldırılması prioritetləri də nəzərə alınmaqla, ölkənin emal sənayesinin müxtəlif sahələrinin inkişafının sürətləndirilməsi vacibliyi əsaslandırılmışdır. Vergi mexanizmlərinin maksimum stimullaşdırıcı xarakter daşımasının strtaeji əhəmiyyəti açıqlanmış və yaxın perspektivdə emal sənayesinə tətbiq edilən vergi strategiyasının əsas mərhələləri müəyyənləşdirilmiş, təkliflər hazırlanmışdır.*

***Açar sözləri:*** *emal sənayesi, vergi siyasəti, vergilər, vergilərin stimullaşdırıcı mexanizmləri, vergilərin səmərəlilik məsələləri, emal sənayesinin inkişaf perspektivləri, vergilərin təkmilləşdirilməsi prioritetləri.*

## Giriş

Müasir şəraitdə effektiv vergi siyasətinin aparılması üçün iqtisadi münasibətlərin iştirakşçılarının maraqlarını nəzərə alan, bütün səviyyələrin büdcələrinə daxilolmaları sabit və etibarlı şəkildə təmin edən səmərəli vergilərin stimullaşdırılması mexanizmlərinin işlənib

*©Samir Xosrov oğlu Ələsgərov AMEA-nın İqtisadiyyat İnstitutu, doktorantı. E-mail: samir_alesgerov@mail.ru*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

hazırlanması və həyata keçirilməsi zəruridir. Vergilərin stimullaşdırılması mexanizmlərinin bir çox nəzəriyyəçilər və tədqiqatçılar tərəfindən nəzərdən keçirilməsinə baxmayaraq, bu məsələdə hələ də yekdil fikir yoxdur. Azərbaycan Respublikasında vergi stimullaşdırılması mexanizmləri bir sıra qanunvericilik aktlarında öz əksini tapmışdır. Belə qanunvercilik bazasından biri Vergi Məcəlləsidir. Milli iqtisadiyyatın inkişafı üçün səmərəli təşkil olunmuş vergi mexanizmi və onun elementləri xüsusi rol oynayır. Mikro və makro səviyyədə vergi mexanizminin bütün elementləri bir-biri ilə bağlıdır və qarşılıqlı əlaqədədir. Vergi mexanizminin xalq təsərrüfatı ilə əlaqəsinə əhalinin tələbatını ödəyən məhsul istehsal edən müəssisələrin inkişafı ilə nail olmaq olar. Büdcəyə vergi daxilolmaları düzgün planlaşdırma və proqnozlaşdırmadan asılıdır. Öz növbəsində, vergi daxilolmaları milli iqtisadiyyatın səmərəli inkişafından və sənaye artımının sürətindən asılıdır. İndiki mərhələdə də vergi siyasətinin əsas məqsədləri investisiyaların, o cümlədən innovasiyaların dəstəklənməsidir. Vergi siyasəti vergi mexanizmi vasitəsilə həyata keçirilir ki, bu da iqtisadiyyatın sahələrində vergi ödənişlərinin formalaşmasına böyük təsir göstərir, həm də sənaye müəssisələrinin inkişafının göstəricisi kimi çıxış edir. Dövlətin vergi siyasətinin əsas missiyası ölkənin inkişafı üçün rahat mühit yaratmaq və iqtisadi artımın optimal templərini saxlamaqdan ibarətdir. Vergi siyasətinin məqsəd və vəzifələrinə nail olmaq üçün vergi dərəcələri, vergi güzəştləri və üstünlükləri, vergitutma obyektləri, vergi sanksiyaları, müəyyən vergi növləri, vergilərin elementləri, vergilərin ödənilmə müddəti kimi vergi alətlərindən istifadə olunur. Milli iqtisadiyyatın sahələrinin inkişafını stimullaşdırmaq üçün vergi güzəştləri tətbiq edilir. Vergi güzəştləri və üstünlükləri müəyyən vergi ödəyiciləri qruplarına digər vergi ödəyicilərinə nisbətən verilən müəyyən üstünlüklərdir. Vergi güzəştləri vergi ödənişlərinin həcminin azaldılmasını, bəzi hallarda isə qanunvericilik əsasında vergi ödəməmək imkanını nəzərdə tutur [1, s.56]. Vergilərin iqtisadi proseslərin tənzimləyicisi kimi rolu milli iqtisadiyyatlarda durmadan artır. Vergi mexanizmləri vasitəsilə dövlət ayrı-ayrı təsərrüfat subyektlərinin, fəaliyyət növlərinin, sahələrin, regionların və s. inkişafını stimullaşdıra və ya məhdudlaşdıra bilər. Dövlət həmişə çalışır ki, bir tərəfdən vergi və ödənişlərin vaxtında və tam şəkildə daxil olmasını, digər tərəfdən isə iqtisadi artım üçün əlverişli şəraiti təmin edən vergitutma mexanizmi yaradılsın. Dövlət vergi tənzimlənməsinin ən təsirli sahəsi stimulların tətbiqidir. Vergi stimulları vergi ödəyicilərinin iqtisadi davranışlarına məqsədyönlü təsir göstərməyə və sənayenin prioritet sahələrini dəstəkləməyə imkan verir [2, s.220].



**Azərbaycanın emal sənayesində vergi mexanizmlərinin səmərəliliyinin təhlili və qiymətləndirilməsi**

Müasir vergilərin stimullaşdırılması mexanizminin formalaşdırılması dövlətin konkret sahədə irəliləyişi üçün istifadə etdiyi alətlərin səmərəliliyini hərtərəfli qiymətləndirmədən mümkün deyil. Beləliklə, Azərbaycanda vergi tənzimlənməsinin əsas vəzifələrindən biri sabit və şəffaf vergilərin stimullaşdırılması mexanizmlərinin tətbiqi ilə emal sənaye müəssisələrinin fəaliyyəti üçün daha əlverişli mühitin yaradılmasıdır. Hazırda emal sənayesi Azərbaycan iqtisadiyyatının ən böyük seqmentlərindən biridir. COVİD-19 pandemiyası şəraitində emal sənayesinin dayanıqlığının qorunub saxlanması və bu sənaye sahəsi üzrə müəssisələrin fəaliyyətinin sabitləşdirilməsi müasir dövrün əsas tələbidir. Məhsulların tələbatını, keyfiyyətini, kəmiyyət və çeşid göstəricilərini təmin etməklə yanaşı, fəaliyyət göstərən müəssisələrin dayanıqlığı Azərbaycanda və onun regionlarında əhalinin məşğulluq səviyyəsini qoruyub saxlamağa imkan verəcəkdir. Ona görə də emal sənayesinin şaxələndirilməsi qarşıya qoyulan əsas vəzifələrdən biri olmalıdır. Hazırda emal sənayesində mövcud iqtisadi və texniki vəziyyət şaxələndirmə meylinin bütün vasitələrlə gücləndirilməsini tələb edir. İqtisadiyyatın şaxələndirilməsi, özəl və xidmət sektorunun

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

ÜDM-də xüsusi çəkisinin artırılması, neft-kimya, metallurgiya, cihazqayırma, tikinti materialları, aqrar və kənd təsərrüfatı istehsalı kimi sahələrdə inkişafın sürətləndirilməsi müasir dövrün aktual problemləri kimi diqqət çəkir [3, s.268]. Emal sənayesi ən mühüm sosial-iqtisadi funksiyaları yerinə yetirməklə rəqabət mühitini formalaşdırır, məhsul bazarlarını doyurur, innovativ fəaliyyəti dəstəkləyir, sosial bərabərsizliyi yumşaldır, əməyə münasibətdə orta təbəqə və yeni təbəqə formalaşdırır. Emal sənayesinin səmərəli inkişafı balanslaşdırılmış istehlak bazarının təşkili və bir çox sosial problemlərin həlli üçün ilkin şərtdir. Emal sənayesinin inkişafının əsas vəzifələri bunlardır: əhalinin ərzaq məhsullarına olan tələbatını ödəmək, investisiya cəlbediciliyini artırmaq üçün istehsalın sabitləşməsinə və sabit artım tendensiyasına nail olmaq, sənayenin struktur yenidən qurulmasını təmin etmək, texniki cəhətdən yenidən təchiz etmək, rəqabətqabiliyyətli yüksək keyfiyyətli məhsul istehsalına müəssisələrin istiqamətinin dəyişdirilməsi Respublikada emal sənayesinin inkişafı üçün hər cür şərait və böyük ehtiyatlar vardır.

Emal sənaye kompleksinin, xüsusilə onun ixracyönümlü sahələrinin stimullaşdırılması və tarazlı inkişafı yolu ilə dövlət tərəfindən tənzimlənməsi sənayenin səmərəliliyinin və rəqabət qabiliyyətinin artırılması probleminin həllinin ən mühüm şərtidir. Emal sənayesi məhsullarının istehsalı və emalı daimi və fəal dövlət tənzimlənməsinə ehtiyacı olan bir sahədir. Lakin emal sənayesinin inkişafına mane olan əsas səbəblər ola bilər ki, bunlara da aşağıdakıları daxil edə bilərik: köhnəlmiş avadanlıqların istifadəsi; ixrac yönümlü rəqabət qabiliyyətli məhsulların olmaması; sənayenin inkişafında innovativ komponentin olmaması; aşağı investisiya axını; mütəşəkkil olmayan xammal bazası; emal sənayesi müəssisələrinin modernləşdirilməsinə və texniki cəhətdən yenidən təchiz edilməsinə yönəlmiş dövlət dəstəyinin kifayət qədər olmaması; yeni texnologiyaların tətbiqini, istehsalın texniki cəhətdən yenidən təchiz edilməsini və modernləşdirilməsini təmin edən şəxsi vəsaitlərin və digər maliyyələşdirmə mənbələrinin və ya əlçatanlılığının olmaması. Bunlarla bərabər, mövcud problemin həlli üçün fəaliyyət istiqamətləri bunlardan ibarət ola bilər: emal müəssisələrinə dövlət dəstəyi, onların kredit resurslarına çıxış imkanları hesabına maliyyə dayanıqlığının artırılması; emal sənayesində istehsal olunan məhsulların reklamına yönəlmiş kampaniyaların aparılması; həm regional, həm də beynəlxalq sərgi və yarmarkalarda iştirak üçün əlverişli şəraitin yaradılması; kənd təsərrüfatı məhsullarının ilkin emalı üçün istehsal sahələrinin yaradılması və inkişafı; şəxsi yardımçı təsərrüfatlarda kifayət qədər həcmdə məhsul istehsal olunan ərazilərdə həmin məhsulların qəbulu məntəqələrinin səmərəli təşkili. Eyni zamanda, rəqabətqabiliyyətli istehsalın sabitləşməsi və inkişafı üçün emal sənayesində yenidənqurma və modernləşdirmə tələb olunur ki, bu da böyük maliyyə resursları tələb edir. Deməli, sənaye sahələrində istehsalın və məhsulların cəlbediciliyinin artırılmasına ehtiyac var. Bundan əlavə, iqtisadiyyatın sürətli inkişafını təmin etmək üçün emal sənaye müəssisələrinin fəaliyyətinin stimullaşdırılması məqsədilə dövlət tərəfindən təsirli tədbirlərin işlənib hazırlanması zəruridir. Emal sənaye istehsalının artımına dövlət təsir alətləri kimi tənzimləyici və həvəsləndirici vasitələrdən istifadə olunur. Digər tərəfdən, emal sənaye istehsalının dövlət tərəfindən stimullaşdırılması ayrı-ayrı layihələrin dəstəklənməsi və müxtəlif metodoloji yanaşmalar əsasında infrastrukturun inkişafı yolu ilə aşağıdakı formalarda həyata keçirilir: subsidiyalar, qrantlar, nizamnamə kapitalına töhfələr, müxtəlif kredit formaları və s. şəklində birbaşa büdcə maliyyələşdirilməsi və vergi, sığorta, gömrük tarif güzəştlərinin, kredit zəmanətlərinin, müxtəlif inzibati sadələşdirmələrin verilməsi yolu ilə dolayı stimullar [4, s.109]. Qeyd edək ki, dövlət tərəfindən emal sənaye istehsalının stimullaşdırılması üzrə səmərəli tədbirlərə isə aşağıdakılar daxildir: müəssisə və layihələrə informasiya, konsaltinq və maliyyə dəstəyi; elmi, texniki və innovasiya fəaliyyətinin təşviqi; insan resurslarının inkişafı və s. Ölkədə sosial-iqtisadi dəyişikliklərin baş verdiyi müasir şəraitdə ema sənayesində vergilərin stimullaşdırma



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

mexanizmlərinin səmərəlilik məsələləri mühüm vəzifələrdəndir. Emal sənayesində vergilərin stimullaşdırma mexanizmlərinin tətbiqi iqtisadi artıma nail olmaq üçün daha effektiv vasitədir. Normal şəraitdə emal sənaye müəssisələri üçün vergilərin hesablanması və ödənilməsi mexanizmi onların biznesinin xüsusiyyətlərini nəzərə almır. Əsasən qabaqcıl innovativ texnologiyaların işlənib hazırlanmasına və tətbiqinə yönəldilmişdir. Emal sənaye müəssisələrinin vergiyə cəlb edilməsi üçün xüsusi qaydaların olmaması iqtisadiyyatın innovativ inkişafında məhdudlaşdırıcı amil ola bilər. Azərbaycanın Vergi Məcəlləsi elmi-tədqiqat işlərinin və investisiyaların stimullaşdırılması üçün müxtəlif stimullar nəzərdə tutur. Bu baxımdan emal sənaye istehsalının vergi güzəştləri ilə bağlı müasir xarici təcrübənin öyrənilməsi və onun təkmilləşdirilməsi yollarını müəyyən etmək lazımdır. Son illərdə Azərbaycanda gəlir vergisi, əmlak vergisi və s. üzrə güzəştlər emal sənaye komplekslərində, texnoparklarda, sənaye parklarında və digər sahələrdə prioritet investisiya layihələrinin həyata keçirilməsində yüksək səmərəlilik nümayiş etdirir. Qeyd edək ki, Azərbaycanda emal sənayesi ümumi məhsulun yaradılmasına, bütün səviyyəli büdcələrə vergi ödənişlərinin həcminə görə respublika iqtisadiyyatının aparıcı sahələrindən biridir. Bunu cədvəl 1-dəki məlumatlarından daha aydın görmək olar.

**Cədvəl 1.**

**Emal sənayesi müəssisələrinin işinin əsas göstəriciləri**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|
| **Cəmi, fəaliyyət göstərən müəssisələrin sayı** | 1778 | 1775 | 1826 | 2034 | 2330 | 2515 |
| **dövlət** | 144 | 140 | 117 | 118 | 124 | 117 |
| **qeyri-dövlət** | 1634 | 1635 | 1709 | 1916 | 2206 | 2398 |
| **Sənaye məhsulunun həcmi, milyon manat** | 7880,4 | 8899,5 | 9723,5 | 10465,4 | 11793,8 | 11848,3 |
| **Ölkədə istehsal olunmuş sənaye məhsulunun ümumi həcmində sahənin payı, faizlə** | 29.9 | 27.6 | 24.4 | 21.9 | 25,1 | 31,8 |
| **Sahə məhsulunun ÜDM-də xüsusi çəkisi, faizlə** | 14,5 | 14,7 | 13,8 | 13,1 | 14,4 | 16,4 |
| **Əsas kapitala investisiyalar, milyon manat** | 482,9 | 424,3 | 652,6 | 1431,9 | 2466,4 | 2610,5 |
| **Sənaye sektoruna yönəldilən investisi-yaların ümumi həcmində sahəyə qoyulan investisiyaların payı, faizlə** | 5.7 | 4.3 | 6.2 | 16.9 | 26,7 | 28,8 |

Mənbə: ARDSK məlumatları əsasında müəllif tərəfindən tərtib olunub. http://www.stat.gov.az.

Cədvəl 1-dən göründüyü kimi, emal sənaye sahələrinə investisiya qoyuluşlarının həcmi artmışdır. 2020-ci ildə ölkədə sənaye sektoru üzrə əsas kapitala 2610,5 milyon manat investisiya qoyulmuşdur ki, bunun da 28,8%-i emal sənayesinin payına düşür. Azərbaycanda fəaliyyət göstərən sənaye müəssisələrinin sayı da son illər davamlı olaraq artmışdır. Belə ki, 2020-ci ildə emal sənaye müəssisələrinin sayı 2515 olmuşdur ki, bu da 2016-cı illə müqayisədə 41,7%, 2017-ci illə müqayisədə 37,7%, 2018-ci illə müqayisədə 23,6%, 2019-cu illə müqayisədə isə 7,9% artmışdır. 2020-ci ildə emal sənaye müəssisələri ölkə üzrə ümumi sənaye müəssisələrinin sayının 74,2%-ni təşkil edmişdir ki, bu da çox böyük rəqəmdir. Lakin buna baxmayaraq bu sənaye sahəsinin istehsal həcmini kifayət qədər qənaətbəxş etmək olmaz. Belə ki, 2020-ci ildə bu sənaye sahəsinin istehsal həcmi 11848,3 milyon manat olmuşdur ki, bu da ümumi sənayenin 31,8%-ni, ÜDM-in isə 16,4%-ni təşkil edir. Bütün bunlarla yanaşı deyə bilərik ki, emal sənaye istehsalının həcmi 2020-ci ildə əvvəlki illərlə müqayisədə artmışdır. Bu artım 2015-ci illə müqayisədə 50,4%, 2017-ci illə müqayisədə 21,9%, 2018-ci illə müqayisədə 13,2%, 2019-cu ildə isə 0,5% artmışdır [5]. Bunlar da öz növbəsində ölkə üzrə büdcə daxilolmalarının həcminə təsir göstərmişdir. Azərbaycanda 2020-ci ildə müxtəlif vergi növlər üzrə büdcə daxilolmaları şəkil 1-də öz əksini tapmışdır.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Şəkil 1.**
**Azərbaycan Respublikasında vergi növləri üzrə büdcə daxilolmaları (2020, milyon manat)**




Mənbə: ARDSK məlumatları əsasında müəllif tərəfindən tərtib olunub. http://www.stat.gov.az.

Qeyd edək ki, 2020-ci ildə büdcə daxilolmaları 26077,9 milyon manat təşkil etmişdir ki, bunun da 48,2%-ni vergi daxilolmaları, 57,2%-ni isə sair daxilolmalar təşkil etmişdir. Büdcəyə vergi daxilolmalarının əsas hissəsi ƏDV (18,5%) və hüquqi şəxslərin mənfəət vergisi (9,0%) olmuşdur. Müasir dövrdə daxili iqtisadiyyatın əsas vəzifəsi vergidən azadolmaların səviyyəsinin azaldılması deyil, onların ayrı-ayrı sahələrə təsirinin stimullaşdırılması və bununla da bütün səviyyələrdə büdcələrə vergi daxilolmalarının həcminin və ÜDM-in artırılmasıdır. Vergi dərəcələrinin azaldılması və vergi güzəştlərinin verilməsi məsələlərinə baxılarkən büdcə gəlirlərindəki kəsiri qiymətləndirmək lazımdır. Emal müəssisələrinin vergi yükünün məqsədyönlü şəkildə azaldılması, investisiya mühitinin yaxşılaşdırılması və yeni investisiyaların daxil olmasının stimullaşdırılması müxtəlif səviyyəli büdcələrə vergi daxilolmalarının artmasına səbəb olmalıdır. Çünki bunun nəticəsində istehsal, vergi bazası artır, müəssisələr investisiyalar üçün daha cəlbedici olur. Həmçinin, müəssisələr innovasiyalar və əmək haqqının artırılması üçün dövriyyə kapitalına malik olacaqlar [6, s.14]. Emal sənaye müəssisələrinin əsas göstəricilərinin artım dinamikasının olmasına baxmayaraq, bu sahədə hələ də problemlər qalmaqda davam edir. Azərbaycanda mövcud təbii və milli sərvətlərdən ən səmərəli istifadənin təmin edilməsi problemləri emal sənayesində inkişaf proseslərinin ən ümumi xüsusiyyətlərindəndir. Emal sənayenin inkişafında aqrar-sənaye kompleksləri və onun əsas sahəsi olan kənd təsərrüfatı mühüm yer tutur.



Qeyd edək ki, Azərbaycanın kənd təsərrüfatı və aqrar-sənaye kompleksinin kompleks dövlət dəstəyi mexanizmlərinə və stimullaşdırılması tədbirlərinə baxmayaraq, bu sahələrdə intensiv inkişaf hələ də əldə olunmayıb. Bu sahələrdə inkişafın intensivləşdirilməsinin yeni mexanizmləri işlənib hazırlanır və həyata keçirilir. Digər problem ölkədə neft və qaz emalı sənayesinin milli iqtisadiyyatın inkişafı maraqlarına kifayət qədər uyğun gəlməməsidir və bu sahələrdə güclü və yeni neft emalı şəbəkəsi formalaşır; Ölkədə ədalətli sosial-iqtisadi siyasətin həyata keçirilməsi ilə yanaşı, yaxın gələcəkdə milli iqtisadiyyatın bazar iqtisadiyyatı prinsipləri əsasında inkişafına dair strateji aspektlər, iqtisadi baxışlar müəyyənləşdirilmişdir. Strateji Yol Xəritəsi çərçivəsində milli iqtisadiyyatın rəqabət qabiliyyətinin gücləndirilməsi, qlobal iqtisadi çağırışlara və qlobal iqtisadi təhdidlərə qarşı immunitetinin artırılması, habelə böhrana qarşı mübarizə tədbirləri, iqtisadiyyatın davamlı inkişafının və sabit artımının təmin edilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir [7, s.72].

Azərbaycanın emal sənayesində vergilərin stimullaşdırılması ilə bağlı məsələlər "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ndə də öz əksini tapmışdır. Həmin strateji yol xəritəsində qeyd olunur ki,

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

kənd təsərrüfatı məhsullarının istehsalı və emalı ilə məşğul olanlara vergi güzəştləri həm istehsalçı xərclərinin aşağı salınması, həm də yerli məhsulların istehlakçılar üçün daha əlverişli olması baxımından mühüm əhəmiyyət kəsb edir. Hazırda bu sahədə inkişaf məqsədləri baxımından kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsinə dövlət dəstəyinin ünvanlılığının daha da təkmilləşdirilməsi və tətbiq mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində islahatlara başlanılıb. Xüsusilə, kənd təsərrüfatı məhsulları istehsalçıları ilə emal müəssisələri və pərakəndə satış şəbəkələri arasında əlaqələrin inkişaf etdirilməsi məqsədilə tətbiq edilən vergi güzəştləri siyasətinə yenidən baxılması zəruridir. Ona görə də qarşıda duran vəzifələrdən biri mövcud ehtiyacları dəqiq qiymətləndirmək və müvafiq dəstəyin miqyasını genişləndirmək üçün sahələri müəyyən etməkdir [8, s.38].

**Yaxın perspektivdə ölkənin emal sənayesində tətbiq olunan vergilərin təkmilləşdirilməsi istiqamətləri və perspektivləri**

Qeyd etdiyimiz kimi, Azərbaycanda emal sənayesi sahələrindən biri kimi kənd təsərrüfatı müəssisələri çıxış edir. Kənd təsərrüfatında investisiya fəallığının artırılması üçün vergi güzəştlərinin tətbiqi məqsədəuyğundur. Vergi güzəştlərinin verilməsi aqrar-sənaye kompleksində bazar münasibətləri mexanizminin tətbiqinə imkan verəcək, kənd istehsalçılarının və aqrar-sənaye kompleksinin əlaqəli sahələrinin maliyyə-iqtisadi vəziyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdıracaqdır. Aqrar-sənaye kompleksinin emal sənayesində rolu və əhəmiyyəti onun ərzaq məhsulları istehsal etməsi ilə müəyyən edilir. Onun inkişafı əlaqəli sənaye sahələrinin yüksəlişinə və əhalinin məşğulluğunun artmasına təkan verir. Emal sənayesinin, eləcə də kənd təsərrüfatının inkişaf səviyyəsi əhalinin güzəranını müəyyən edir və dövlətin milli təhlükəsizliyinin mühüm tərkib hissəsidir. Tədqiqat göstərir ki, emal sahələrinin sənaye fəaliyyətinə və aqrar-sənaye kompleksinə aid edilməsi onların maddi istehsal sferasında və cəmiyyətin sosial-iqtisadi həyatında aparıcı rolunu bir daha təsdiq edir. Öz növbəsində, yalnız yüksək inkişaf etmiş emal sənayesi sayəsində əhalini müxtəlif çeşiddə yüksək keyfiyyətli ərzaq məhsulları ilə təmin etməklə yanaşı, həm də kənd təsərrüfatı xammalının mümkün qədər və itkisiz saxlanmasına və emalına imkan verən ərzaq təhlükəsizliyi təmin edilə bilər, ölkənin ixrac potensialının artırılmasına imkan verər. Bunun üçün aqrar-sənaye komplekslərinin ixrac yönümlü sahələrinin tənzimlənməsi tədbirlərinin reallaşdırılması mühüm vəzifə kimi qarşıya qoyulmalıdır. Aqrar-sənaye kompleksinin ixracyönümlü sahələrinin tənzimlənməsi tədbirləri sırasında məhz əsas yeri vergi güzəştləri mühüm yer tutur. Bunun üçün , ilk növbədə, kənd əmtəə istehsalçılarını daxili tələbatı ödəmək üçün istiqamətləndirmək lazımdır. Aqrar-sənaye kompleksinə investisiyaların cəlb edilməsi üçün vergi güzəştlərinin verilməsini də geniş tətbiq etmək lazımdır.



Bir məsələyə diqqət yönəltmək istərdik, belə ki, vergidən azad olmalar və güzəştlərlə bağlı məsələlər Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 106-cı maddəsində öz əksini tapmışdır [9]. Bu qeyd edilənlər onu deməyə əsas verir ki, Azərbaycan Respublikasının emal sənayesinin müasir inkişaf səviyyəsinin tələblərinə cavab verən, prinsipcə yeni, keyfiyyətcə fərqli vergi stimullaşdırılması mexanizmlərinin formalaşdırılmasını zəruridir. Bu proses mürəkkəb və çoxşaxəli olmaqla vergi stimullaşdırılması mexanizmlərinin və onun emal sənaye müəssisələrinin inkişafına təsirinin hərtərəfli öyrənilməsini tələb edir. Bu baxımdan hesab edirik ki, müasir şəraitdə vergilərin stimullaşdırılması mexanizmlərinin səmərəliliyinin təmin edilməsi problemlərinin həlli mühüm vəzifə kimi qarşıya qoyulmalıdır. Emal sənayesinin inkişafının tənzimlənməsi üçün vergi sisteminin təkmilləşdirilməsi məqsədilə aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur: emal sənayesinə tətbiq olunan vergi dərəcələrinin optimallaşdırılması; emal sənayesinin inkişafına yönəlmiş vergi və gömrük siyasətinin həyata keçirilməsi; kənd təsərrüfatı istehsalçıları üçün vergi güzəştlərinin

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

genişləndirilməsi; sahibkarlara göstərilən vergi xidmətlərinin təkmilləşdirilməsi və əhatə dairəsinin genişləndirilməsi üçün kompüter terminallarının və özəl vergi məsləhət xidmətlərinin yaradılması; vergi ödəyicilərinin öz resurslarını istiqamətləndirmək üçün stimullaşdırılması; bəzi vergi növləri və ƏDV üzrə vergi yükünün azaldılması; vergi potensialı nəzərə alınmaqla vergilərin planlaşdırılması və proqnozlaşdırılması; emal müəssisələrin fəaliyyətində vergi yükünün azaldılması üçün məqsədli vergi güzəştlərinin tətbiq edilməsi; effektiv olmayan vergi güzəştlərinin azaldılması və təbii ehtiyatların vergiyə cəlb edilməsinə diqqətin artırılması [10, s.196].

Vergi ödəyicilərinin mövqeyinə və vergi daxilolmalarının məbləğinə təsir edən gəlir vergisi üzrə vergitutma bazasının qurulmasında mühüm məqam vergi dövrü üçün zərərlərin silinməsi mexanizmidir. Vergi qanunvericiliyinin təkmilləşdirilməsi emal sənaye müəssisələrinin investisiya maliyyələşdirməsinin daxili və xarici mənbələrini cəlb etməyə və istifadə etməyə həvəsləndirilməsinə yönəldilməlidir. İnvestisiyalara vergi dəstəyinin əsas alətləri vergi dərəcələrinin azaldılması və investisiya vergisi kreditinin istifadəsi, məqsədyönlü təşviqlər və sürətləndirilmiş amortizasiya çıxış edə bilir. Stimullaşdırıcı mexanizmlərə malik olan əsas vergilər gəlir vergisi və ƏDV-dir. Emal sənayesinə tətbiq edilən vergi mexanizminin təkmilləşdirilməsi istiqamətlərindən biri də onların mənbələrindən asılılıq əsasında vergi yükünün düzgün müəyyən edilməsidir.

**Nəticə**

Beləliklə, emal sənayesinin fəaliyyətini stimullaşdırmaq üçün vergi qanunvericiliyi onların mühasibat və vergi uçotunu, vergi və rüsumların ödənilməsi prosesini (sadələşdirilmiş vergitutma sistemi, vahid vergi) sadələşdirməyə imkan verən xüsusi vergi rejimlərinin tətbiqini nəzərdə tutur. Fikrimizcə, emal sənayesində vergi münasibətlərinin stimullaşdırılmasına və inkişafına töhfə verən növbəti tədbirlər aşağıdakılar ola bilər:

- innovasiyaların işlənib hazırlanması və tətbiqi ilə məşğul olan, elmi-tədqiqat və təcrübə-konstruktor işləri aparan emal sənayesi müəssisələri üçün vergi güzəştlərinin genişləndirilməsi (məsələn, mənfəət vergisinin aşağı salınması, vergi tətillərinin uzadılması).
- emal sənayesi müəssisələrinin subyektlərinin dövlət sifarişlərinin yerinə yetirilməsi üçün tenderlərdə və hərraclarda iştirak etmək üçün tam çıxışın təmin edilməsi.
- yeni fəaliyyətə başlayan emal müəssisələri üçün distant formatda treninqlər keçirə və vergi qanunvericiliyində qüvvəyə minən dəyişikliklərlə bağlı operativ izahat verə biləcək məsləhət mərkəzləri (biznes inkubatorlar) şəbəkəsinin yaradılması. Bu, daha çox potensial istehsalçıları cəlb etməyə, onlara sahibkarlıq fəaliyyətinin əsaslarını öyrətməyə, maliyyə savadlılığını artırmağa imkan verəcək.
- təklif olunan tədbirlərin həyata keçirilməsi emal sənaye müəssisələrinin davamlı inkişafını təmin edəcək, işçilərin məşğulluq səviyyəsini yüksəldəcək, emal sənayesində sahibkarlıq fəaliyyəti və onun innovativ inkişafı üçün vergi mühitini yaxşılaşdıracaq, dövlət büdcəsinin gəlirlərinin tələb olunan səviyyədə olmasını təmin edəcəkdir.
- tədqiqatın nəticələrini ümumiləşdirərək qeyd etmək olar ki, təklif olunan vergilərin stimullaşdırılması mexanizmlərinin tətbiqi emal sənaye müəssisələrinin vergi yükünü nəzərə almaqla, onların risklərinin səriştəli idarə edilməsi əsasında tarazlı inkişafını təmin edəcək və fəaliyyətlərinin səmərəliliyini artıracaqdır.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Ədəbiyyat**


1. Сазонова, Ю.Ю., Мигел, А.А. Инструменты налогового регулирования предпринимательской деятельности в современных экономических условиях // Калужский экономический вестник. – 2019. – № 1. – С. 56-59.
2. Моисеев, С.В. Налоговые льготы как инструмент государственного регулирования // Университетская наука. – 2021. – № 2(12). – С. 220-223.
3. Şəkərəliyeva, Z.A. Sosial-iqtisadi siyasətin müasir dövrün tələblərinə uyğun olaraq inkişaf etdirilməsi məsələləri. Azərbaycanın qeyri-nfet-sektorunun inkişaf perspektivlər. Respublika elmi konfransı, Sumqayıt 25-26 aprel, 2019, s.265-268.
4. Хамирзова, С.К., Ушхо, А.У. Роль налогового стимулирования в системе мер государственной поддержки промышленных предприятий. Новые технологии, 2020, 2(52), с. 106-116.
5. Azərbaycanın statistik göstəriciləri. Statistik məcmuə. Bakı, 2021, 752 s.
6. Омургазиева, Н.Б. Векторы совершенствования налогового стимулирования реальных инвестиций // Экономика и управление в XXI веке: стратегии устойчивого развития: сборник статей III Международной научно-практической конференции, Пенза, 05 сентября 2017 года. С. 13-15.
7. Əliyev, Ş.T. Azərbaycan iqtisadiyyatı. Ali məktəb tələbələri üçün dərslik. Sumqayıt SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 2018, 376 s.
8. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi. Bkı, 6 dekabr, 2016, 177 s.
9. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. https://www.taxes.gov.az/az/page/ar-vergi-mecellesi.
10. Rzayev, P.Q. İqtisadiyyatın vergi tənzimlənməsi mexanizminin stimullaşdırıcı rolunun artırılması istiqamətləri. Monoqrafiya. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2013. – 392 s.




© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

***Самир Хосров оглу Алескеров***

***Вопросы эффективности стимулирующих механизмов существующих налогов в перерабатывающей промышленности Азербайджана***

***Резюме***

*Цель исследования – состоит из определения эффективности стимулирующих механизмов существующих налогов в перерабатывающей промышленности Азербайджана в современных условиях. С этой целью анализирован потенциал перерабатывающей промышленности и рассмотрены возможности повышения продуктивности в этой сфере за счёт оптимизации налогов. Исследованы важнейшие аспекты налоговой политики и анализированы вопросы эффективности налоговых механизмов в перерабатывающей промышленности. Рассмотрены возможности развития потенциала разных сфер перерабатывающей промышленности и реализации их путём стимулирования налогов Азербайджана. Анализированы основные показатели предприятий перерабатывающей промышленности и поступления в бюджет по разным видам налогов в 2020 году. Обоснованы и даны предложения по формированию этапов налоговой стратегии для перерабатывающей промышлености. Методология исследования – в статье применены методы анализа и синтеза, обобщения, а так же использованы теоретико-методологические подходы, научные труды разных учёных и исследователей по проблемам эффективности механизмов стимулирования налогов в перерабатывающей промышленности. Практическая значимость исследования – полученные результаты и научно-экономические подходы могут быть применены в разработке и реализации целевых программ и мероприятий по эффективному использованию потенциала перерабатывающей промышленности в Азербайджане. Результаты исследования – разработаны стимулирующие механизмы и обоснована эффективность совершенствования существующих налогов в перерабатывающей промышленности в Азербайджане в условиях пандемии COVID-19 и постпандемическом периоде. Оригинальность и научная новизна исследования – в исследовании преимущественно даны материалы, полученные обобщением различных научных взглядов и трудов с учётом авторских подходов и, тем самым, объясняется оригинальность статьи. В качестве основной научной новизны можно рассмотреть определение адекватности налоговой ставки и налоговых механизмов, используемых в перерабатывающей промышленности Азербайджана и обеспечение новых подходов к проблемам в данной сфере. Обоснована важность ускорения различных сфер перерабатывающей промышленности с учётом потенциала освобождённых от оккупации территорий и в контексте устранения негативных последствий пандемии COVID-19. Раскрыта стратегическая важность стимулирования налоговых механизмов и определены основные этапы налоговой стратегии, предложенные для применении в перерабатывающей промышленности страны в ближайшей перспективе.*

***Ключевые слова:*** *перерабатывающая промышленность, налоговая политика, налоги, механизмы стимулирования налогов, вопросы эффективности налогов, перспективы развития перерабатывающей промышленности, приоритеты совершенствования налогов.*



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

**_Samir Khosrov Aleskerov_**

**_Issues of efficiency of incentive mechanisms of existing taxes in the manufacturing industry of Azerbaijan_**

**_Summary_**

*Purpose of the research – is to determine the effectiveness of incentive mechanisms of existing taxes in the manufacturing industry of Azerbaijan in modern conditions. To this end, the potential of the manufacturing industry is analyzed and the possibilities of increasing productivity in this area due to tax optimization are considered. The most important aspects of tax policy are investigated and issues of efficiency of tax mechanisms in the manufacturing industry are analyzed. Possibilities of developing the potential of different fields of manufacturing industry and their implementation by stimulating taxes of Azerbaijan are considered. The main indicators of enterprises of the manufacturing industry and budget revenues for different types of taxes in 2020 are given for this purposes. Proposals for the formation of tax strategy stages for the manufacturing industry are justified at the end of the article. Research methodology - the article uses methods of analysis and synthesis, generalization, as well as theoretical and methodological approaches, scientific works of various scientists and researchers on the problems of the effectiveness of tax incentive mechanisms in the manufacturing industry. The practical importance of a research - the obtained results and scientific and economic approaches can be applied in the development and implementation of targeted programs and measures for the effective use of the potential of the manufacturing industry in Azerbaijan. The results of the research - stimulating mechanisms are developed and the effectiveness of improving existing taxes in the manufacturing industry in Azerbaijan in the conditions of the COVID-19 pandemic and the post-pandemic period is justified. Originality and scientific novelty of the research - the article mainly gives materials obtained by summarizing various scientific views and works taking into account different approaches and, thereby, explains the originality of the article. As the main scientific novelty, consideration of determining the adequacy of the tax rate and tax mechanisms used in the manufacturing industry of Azerbaijan and ensuring new approaches to problems in this area are given. The importance of accelerating various spheres of the manufacturing industry, taking into account the potential of territories liberated from occupation and in the context of eliminating the negative consequences of the COVID-19 pandemic, is considered. The strategic importance of stimulating tax mechanisms has been revealed and the main stages of the tax strategy proposed for application in the country's manufacturing industry in the near future have been identified.*

***Key words:*** *manufacturing industry, tax policy, taxes, tax incentive mechanisms, issues of tax efficiency, prospects for the development of the manufacturing industry, priorities for tax improvement.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 15.12.2021.***
***Çapa qəbul olunub: 23.12.2021.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*